Məmmədov Emin

**Azərbaycan Respublikası Vəkillər Kollegiyasının Rəyasət Heyətinin**

**sədri cənab Anar Bağırova**

Yardımlı rayonu, Daşkənd kənd sakini
Sultanova Rəvanə Müştəba qızı tərəfindən
Telefon: 099 820-60-90

# MÜRACİƏT

**Hörmətli Anar bəy!**

Mən, sadə və imkansız vətəndaş kimi sizə müraciət edərək 13 saylı vəkil bürosunun təcrübəli, savadlı, peşəkar və ən əsası xeyirxah vəkili olan Emin müəllimin mənə göstərdiyi və hal-hazırda da davam edən olan təmənnasız hüquqi yardımına görə hörmətli vəkilə və şəxsən sizə təşəkkür edirəm.

Pulsuz hüquqi yardım üçün büroya müraciət edəndə Emin müəllim o qədər xoş və gülərüzlə məni qarşılayıb diqqətlə dinlədi ki, ona dərdimi anlatdıqca gözyaşlarımı saxlaya bilmirdim. O isə məni sakitləşdirib təsəllik verməklə yanaşı mənə daima yaddaşıma həkk olunan bir söz dedi. O söz **"xanım narahat olmayın Azərbaycan vəkili vətəndaşını darda qoymaz"** İnanın Emin müəllimin bu sözünü eşitikdən sonra özgüvənliyim və ən əsası dövlət gücünü hiss etdim. Buna görə peşəkarlılığı, savadı, intizamı və yüksək ailə tərbiyəsi ilə seçilən Emin müəllimə və sıralarınızda onun kimi hüquq müdafiəçiləri olduğu üçün şəxsən sizə təşəkkür edir və sizlərə fəaliyyətinizdə uğurlar arzu edirəm.

**Dərin hörmətlə,**

**Vətəndaş** [signature] **Sultanova Rəvanə Müştəba qızı**

Vəkillər Kollegiyasının
Rəyasət Heyəti
Daxil olma № 1819
«21» 05 2024 il